# Azərbaycan və İran arasındakı münasibətlər bir çox ölkələrə nümunədir

Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov dünən İran İslam Respublikasının mədəniyyət və islami irşad naziri Seyid Abbas Salehinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.

Ziyafət Əsgərov iki ölkənin müştərək tarixə və mədəniyyətə malik olduğunu dedi. Bildirdi ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən və ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasından sonra İran İslam Respublikası ilə əlaqələrə xüsusi əhəmiyyət verilib, dostluq və qardaşlıq münasibətləri həmişə qorunub. Bu əlaqələrin indi də yüksələn xətlə inkişaf etdiyini deyən Ziyafət Əsgərov xalqlarımız arasındakı mehribançılığı da xüsusi vurğuladı.

Milli Məclis Sədrinin birinci müavini qeyd etdi ki, prezidentlərin qarşılıqlı səfərləri dostluq əlaqələrimizin daha da möhkəmlənməsinə təkan verir. Azərbaycan və İran



arasındakı münasibətlərin bir çox ölkələrə nümunə ola biləcəyini deyən Ziyafət Əsgərov bu əlaqələrin daha da dərinləşdirilməsinin vacibliyini söylədi.

Parlamentlərarası əlaqələrdən danışan Ziyafət Əsgərov dostluq qruplarının fəaliyyətini yükək qiymətləndirdi, hökumətlər səviyyəsindəki münasibətlərdən söz açdı.

Ziyafət Əsgərov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başvermə səbəblərindən, onun törətdiyi ağır nəticələrdən danışdı. Qeyd edildi ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Ermənistan tərəfi azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb. Ölkəmizdə Ermənistanın təcavüzünə görə 1 milyon 200 min qaçqın və məcbur köçkün var.

İranın mədəniyyət və islami irşad naziri Seyid Abbas Salehi qədim tarixə malik olan Azərbaycan-İran əlaqələrinin son illər yüksək səviyyəyə çatdığını bildirdi. Nazir bu münasibətlərin inkişafında qarşılıqlı səfərlərin, yüksək səviyyəli görüşlərin əhəmiyyətini xüsusi qeyd etdi. Hər iki ölkənin regional və beynəlxalq məsələlərdə müştərək mövqe sərgilədiyini vurğuladı. İqtisadi əlaqələrdən söz açan nazir, bu sahədə münasibətlərin daha da dərinləşdirilməsi üçün görülən işlərdən danışdı. Elm, təhsil, mədəniyyət və incəsənət kimi digər sahələrdə də əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğunu qeyd etdi.

Sonda qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edildi.

***Səbinə MƏMMƏDOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.-29 iyun.- S.2.